


**Gəncə Azərbaycanın istiqlaliyyət tarixinin izlərini qoruyub saxlayan şəhərdir. Milli dövlətçiliyimizin əsası məhz bu şəhərdə qoyulub. Şəhərə xas olan bütün abidələr yenidən qurulsa da, tarixi incilər qorunub saxlanmışdır. Bu baxımdan, ölkəmizdə dini-tarixi və digər abidələrə göstərilən diqqət və qayğı, həssas münasibət Gəncədə ilk baxışda nəzərə çarpır. "İmamzadə" dini kompleksi nəinki Azərbaycanın, eləcə də bütün İslam dünyasının ən möhtəşəm və əzəmətli dini mərkəzlərindən birinə çevrilib.**

Ulu Gəncə - Şeyx Nizami yurdu, davamlı və kompleks inkişaf mərhələsinə qədəm qoymuş, aparılan irimiqyaslı abadlıq-quruculuq işləri nəticəsində şəhər gözəlləşmiş və yeniləşmişdir. Məhz bunun bariz nümunəsidir ki, birinci dəfə olaraq, Gəncə Avropanın Gənclər Paytaxtı seçilmiş, dünyəvi şəhərə çevrilmişdir.

Gəncə elə bir strateji ərazidə yerləşir ki, Qafqaza giriş məhz buradan keçir. Burada aparılan yüksəliş, tərəqqi və quruculuq işləri diqqəti çəkir. Bu gün, paytaxt istiqamətindən şəhərə daxil olan hər kəs möcüzələr aləmi ilə üzləşir. Yolun sağ və sol tərəflərində ucaldılan rəmzi möhtəşəm və əzəmətli Gəncə Qala Qapıları - Arxeologiya və Etnoqrafiya Muzeyi Abidə Kompleksi bir növ şəhərin qədim tarixini özündə əks etdirir. Burada hündürlüyü 65 metrdən yuxarı olan əzəmətli müqəddəs bayrağımız, Türk dünyasının fenomeni ümummilli liderin möhtəşəm abidəsi, müasir üslubda işıqlandırma sistemi, bir-biri ilə uzlaşan fəvvarələr, ətrafdakı yaşıllıqlar və gül-çiçək qalaya xüsusi görkəm, gözəllik verir. İrəlilədikcə 3 km uzunluğunda sağ və sol tərəfdəki memarlıq elementləri hər bir insana zövq verir. 20 metr hündürlüyündə silindrik formada mərmər bina - möhtəşəm Nizami Məqbərəsi və ətrafındakı zövqlə salınmış park ilə zənginləşdirilmişdir. Orijinal quruluşa malik "Xəmsə" Daş Kitabələr Kompleksi şəhərə qədəm qoyan qonaqların diqqətini cəlb edir. Kompleksdə Nizami Gəncəvinin "Xəmsə"sinə daxil olan 5 möhtəşəm kitab-abidə yaradılıb. Boş və bərbad ərazidə, az müddət içərisində alternativi olmayan, ümummilli liderin adına layiq, möhtəşəm Heydər Əliyev Mərkəzi, ecazkar təbiətə malik istirahət parkı, girişdə möhtəşəm "Zəfər tağı" ucaldılmışdır. Əfsanəvi gözəlliyi ilə insanları məftun edən möcüzəli suni "göl", balaca fidanlar üçün fantastik əyləncə mərkəzləri yaradılmışdır. Tək Gəncədən deyil, regionlardan bu istirahət məkanına on minlərlə insan dincəlməyə gəlir, bu unikal mənzərəni seyr edir, məmnun qalır, ölkə başçısına minnətdarlıq edirlər. Ölkə başçısı Gəncə şəhərinə növbəti səfəri zamanı bunu çox böyük qiymətləndirmiş və demişdir: "Gözəl bir göl, amfiteatr yaradılıbdır. Yəni bu, doğrudan da bir möcüzədir". Dünyanın beş ən böyük parkı arasında yer tutan, 450 hektar sahəsi olan möhtəşəm Heydər Əliyev park-kompleksinin ərazisində, uzunluğu 354 metr, eni 170 metr, dərinliyi 3 metr olan bu əfsanəvi "göl"ün içərisinə 175000 ədəd "Yapon sazanı" buraxılmışdır.









Dövlət müstəqilliyimizin bərpasının yubileyi ərəfəsində Gəncədə daha bir möhtəşəm sosial layihə reallaşdırılıb. Şəhəri iki hissəyə bölən qədim Gəncə çayının sağ sahilində reallaşan bu nəhəng növbəti layihə - möhtəşəm "Gəncəçay" park-bulvar kompleksi Gəncə sakinlərinin ən sevimli yeridir. Bu fantastik bulvar günün hər vaxtında insanlarla doludur. Bəli, sözün əsl mənasında, bu gün, dünyanı qlobal iqtisadi böhran cənginə aldığı bir vaxtda belə möhtəşəm işlərin görülməsi ölkə başçısının vətəndaşlarına göstərdiyi sonsuz diqqət və qayğının bariz nümunəsidir.

Gəncə çayı ta qədimdən başlanğıcını Kiçik Qafqazdan götürmüş və kiçik çayları da özünə toplayaraq əzəmətli Kür çayına tökülür. Yaz vaxtı aşıb-daşan, şıltaqlıq edən bu çay şəhərin memarlıq simasında böyük rol oynayır. Məhz bu baxımdan burada yaradılan bulvar qədim Gəncə memarlığının ən müasir şəhərsalma və memarlıq nümunələri ilə zənginləşdirilmişdir. Çay boyunca yeni yaradılan bulvar kompleksində geniş abadlıq-quruculuq işləri aparılıb, yaşıllıq zolaqları salınıb, qazonlar arasından boylanan gül-çiçəklər ətrafa xüsusi gözəllik verir. Görülən bu işlər sakinlərin və şəhərə gələn qonaqların rahatlığı üçün müasir istirahət guşələrinin yaradılması istiqamətində reallaşdırılan layihələrin bir hissəsidir. Yeni park, istirahət məkanı və guşələrin yaradılması, əhaliyə xidmət göstərən müasir infrastrukturun qurulması həm də Gəncənin daha da gözəlləşməsi işinin davamlı xarakter almasından və ümumilikdə şəhərin sosial-iqtisadi inkişafından xəbər verir.

"Gəncəçay" park-bulvar kompleksinin uzunluğu 1,2 kilometrdir. Ümumi sahəsi 34 hektar olan bu kompleksdə istirahət üçün hərtərəfli şərait yaradılıb, geniş işıqlandırma işləri görülüb, 15 fəvvarə və müxtəlif kompozisiyalı 10 heykəl quraşdırılıb. Çayın məcrasının hər iki tərəfində betondan ümumi uzunluğu 2,4 kilometr olan istinad divarı tikilib. Bulvarda Bayraq Meydanı, "Əli və Nino" kompleksi, Mətbuat evi, Kitab evi, Uşaq Əyləncə və Ticarət Mərkəzi, altımərtəbəli və yeddimərtəbəli üç yaşayış binası, müasir, dünya standartlarına uyğun üç kafe, restoran və kinoteatr, açıq havada fantastik attraksionlar və digər sosial obyektlər inşa edilmişdir ki, bunlara da bulvarın "mirvarisi" desək, yanılmarıq. Burada 1,7 kilometr uzunluğunda velosiped yolu və iki velosiped dayanacağı inşa edilib, böyük monitor quraşdırılıb, bulvar kompleksində kanalizasiya, yağış suları ötürücüsü və içməli su təchizatı sistemi əsaslı şəkildə yenidən qurulub. Yüksək zövqlə inşa edilmiş kitab satışı mərkəzindən oxucular istədikləri kitabı alıb, açıq havada, zövqlə salınmış yaşıllıq zolağında mütaliə edirlər. Ümumiyyətlə, bu bulvar memarlığın ən son nailiyyətlərini özündə əks etdirir.

Doğrudan da mübaliğəsiz demək olar ki, əsrarəngiz təbiəti, füsunkar gözəlliyi, müasir görkəmi, maraqlı dizayn və milli elementləri ilə bulvar kompleksi gəncəlilərin və bölgə sakinlərinin sevimli bir guşəsinə-ecazkar - istirahət zonasına çevrilmişdir.

Uğurlar olsun, Gəncə!

**Zabit XƏLİLOV,**
**"Respublika"**